# Mingəçevir: günbəgün gözəlləşən şəhər



Ölkə iqtisadiyyatında əldə olunmuş yüksək nailiyyətlər Mingəçevir şəhərinin də inkişafına öz müsbət təsirini göstərmişdir. Şəhər icra hakimiyyətində bu günlərdə keçirilən geniş şura iclasında Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov görülmüş işlər və qarşıda duran vəzifələr barədə ətraflı məlumat vermişdir. Natiq qeyd etmişdir ki, 2015-ci ilin doqquz ayında şəhər iqtisadiyyatının əsas sahələri üzrə məhsul istehsalı 26 faiz artaraq, 360 milyon manat təşkil etmişdir.

Hesabat dövründə 197 milyon manatlıq sənaye məhsulu istehsal edilmiş, 100 milyon manatlıq tikinti-quraşdırma işləri görülmüş, əsas kapitala 115 milyon manat vəsait yönəldilmiş, 3 milyon manatlıq nəqliyyat, 1 milyon manatlıq rabitə, 58 milyon manatlıq ticarət və 36 milyon manatlıq digər xidmətlər göstərilmişdir.

İlin əvvəlindən sənaye müəssisələrində istehsal olunmuş 197 milyon manatlıq məhsulun 184 milyon manatlığı və ya 93 faizi elektrik enerjisi istehsal edən iki müəssisənin payına düşür. Hesabat dövründə bu müəssisələrdə 6 milyard kilovat-saat elektrik enerjisi istehsal edilmişdir.

Ölkənin ən iri elektrik enerjisi istehsalçısı olan Azərbaycan İstilik Elektrik Stansiyasında ötən doqquz ayda etibarlı və dayanıqlı iş rejimi təmin olunmuş, yük qrafikinə əməl olunmaqla, istehsal tapşırıqları tam həcmdə yerinə yetirilmişdir. Qarşıdan gələn payız-qış mövsümünə hazırlıqla bağlı stansiyanın 1-ci və 2-ci enerji blokları əsaslı təmir olunmuş, digər enerji bloklarında cari təmir işləri aparılmışdır. Mindən çox şəhər sakini işləyən stansiyada orta aylıq əmək haqqı 432 manat olmuşdur.

Mingəçevir SES silsiləsində hesabat dövründə 3 hidroaqreqatda, 2 güc və 4 xüsusi sərfiyyat transformatorunda, 5 kompressorda və digər köməkçi avadanlıqlarda cari təmir işləri aparılmış və stansiyanın payız-qış mövsümünə hazırlığı təmin edilmişdir. SES silsiləsində son illər aparılan əsaslı yenidənqurma işləri davam etdirilir. Stansiyada çalışan əməkçilərin orta aylıq əmək haqqı 350 manat təşkil edir.

Doqquz ayın təhlili göstərir ki, fəaliyyət göstərən digər sənaye məhsulu istehsalı müəssisələrində sabit iş rejimi saxlanılmış, istehsalın genişləndirilməsi istiqamətində tədbirlər davam etdirilmişdir.

Hesabat dövründə şəhərin sənaye müəssisələrində orta aylıq əmək haqqı 361 manat olmuşdur. O cümlədən dövlət sektorunda 383 manat, qeyri-dövlət sektorunda 231 manat.

Ötən doqquz ayda şəhər sakinlərinin sosial məsələləri daim şəhər icra hakimiyyətinin diqqət mərkəzində olmuşdur. Son üç ildə şəhərdə aparılan abadlıq və yenidənqurma işləri bu ilin doqquz ayında daha geniş miqyas almışdır. İlin əvvəlindən 49 yaşayış binasının 56 min kvadratmetr dam örtüyü əsaslı təmir olunmuş, 22 yaşayış binasının 62 min kvadratmetr fasad hissəsi üzlənmiş və rənglənmiş, yaşayış binalarının bünövrə hissəsinə 4 min kvadratmetr aqlay üzlük çəkilmişdir. Park və səkilərə 42 min kvadratmetr beton dekorativ daş döşənmiş, küçə və səkilərə, Samux küçəsinə, çimərlik yoluna ümumilikdə 282 min kvadratmetr yeni asfalt örtük salınıb. Füzuli parkı əsaslı yenidən qurulub. Parkda iki ədəd fəvvarə quraşdırılıb, yerə tamet döşənib, müasir işıqlandırma sistemi çəkilib, oturacaqlar qoyulub, dekorativ gül-çiçək və müxtəlif növ bəzək ağacları əkilib. Parkda mini futbol meydançası, uşaq-əyləncə avadanlığı və trenajor kompleksi quraşdırılıb. Parkın ətrafındakı küçədə hasarlar rənglənib, 4 yüksək mərtəbəli binada üzləmə, rəngləmə və dam örtüklərinin əsaslı təmiri işləri görülüb. Ulu öndər H.Əliyevin adını daşıyan park əsaslı yenidən qurulub. Park, küçə və xiyabanlara 258 ədəd müasir işıq dirəkləri quraşdırılıb. Teatr meydanı və qarşısındakı fəvvarə əsaslı yenidən qurulub. Uzun illər istifadəsiz qalan yeganə yeraltı keçid əsaslı təmir olunub. Şəhərin kommunal təşkilatlarına 13 adda müasir maşın və avadanlıq alınıb.

Hesabat dövründə təqaüddə olan 17234 şəhər sakininə hesablanmış 25,2 milyon manat vəsait hər ay vaxtında ödənilib. Şəhər üzrə orta aylıq təqaüdün məbləği 162 manat təşkil edib.

Əhalinin Sosial Müdafiəsi Mərkəzi tərəfindən doqquz ayda 4248 nəfər ailə üzvü olan 1036 ailəyə ünvanlı sosial yardım təyin edilib və ümumilikdə bu ailələrin sayı 1416 olub. Əlavə olaraq aylıq müavinət alan şəhər sakininin sayı 5356 nəfər təşkil edib. Dövlət tərəfindən bu yardımlara 5,3 milyon manat vəsait yönəldilib.

Şəhər Məşğulluq Mərkəzinə doqquz ayda 859 nəfər işsiz şəhər sakini müraciət etmiş, onlardan 372 nəfəri ixtisasına, peşəsinə uyğun işlə təmin olunmuş, 73 nəfər münasib işlə təmin olunmadığı üçün, onlara işsiz statusu verilmiş və işsizliyə görə müavinat təyin edilmişdir.

Cari ilin 9 ayında şəhərin kommunal təsərrüfat müəssisələri aparılan genişmiqyaslı quruculuq və abadlıq işlərində yaxından iştirak etməklə yanaşı, əhaliyə, müəssisə və təşkilatlara, ümumilikdə şəhər təsərrüfatına, fasiləsiz və yüksək səviyyəli xidmət göstərmişlər.

Şəhər paylayıcı elektrik şəbəkə sahəsi tərəfindən 14 ədəd yeni transformator quraşdırılıb, 16 ədəd ayırıcı yenilənib, 1,5 km SİP kabel çəkilib. Doqquz ayda 10 ədəd ağac dayaq beton dayaqla əvəz edilib, 16 ədəd zədəli dayaq və 600 metr zədəli naqil yenilənib. İstehlak olunmuş elektrik enerjisinin haqqı 98,3 faiz ödənilib.

Şəhərimizdə məskunlaşmış 5426 məcburi köçkün ailəsinin sosial-məişət problemlərinin həlli daim şəhər İcra Hakimiyyətinin diqqətində olmuşdur. Köçkünlərin məskunlaşdığı tikililərin dam örtüklərinin təmirinə, su təchizatına və yaranan digər problemlərin həllinə imkan daxilində köməklik göstərilmişdir.

Dövlət Proqramına əsasən şəhərin təhsil və səhiyyə obyektlərində, qəzalı yaşayış sahələrində məskunlaşmış 594 ailə yeni tikilmiş 11 ədəd doqquzmərtəbəli binaya köçürülmüşdür.

2015-ci ilin doqquz ayında şəhər həyatının digər sahələri kimi təhsil, səhiyyə, mədəniyyət, gənclər və idman sahələrinin inkişafına, maddi-texniki bazasının gücləndirilməsinə lazımi diqqət yetirilmişdir. Hesabat dövründə şəhərin 1, 7 və 9 saylı tam orta məktəblərində əsaslı təmir işlərinə başlanmış və hazırda işlər davam edir.

Mingəçevir Şəhər Mərkəzi Xəstəxanasının və onun struktur bölmələrinin dərman və sarğı materialları ilə təminatı 2015-ci ildən Səhiyyə Nazirliyi tərəfindən həyata keçirilir ki, bu da təminatın xeyli dərəcədə yaxşılaşmasına səbəb olmuşdur. 9 ay ərzində Mingəçevir Şəhər Mərkəzi Xəstəxanasına və onun struktur bölmələrinə Səhiyyə Nazirliyi tərəfindən 665890 manatlıq dərman maddələri və sarğı materialları verilmişdir.

Mingəçevir Şəhər Mərkəzi Xəstəxanası 18 aprel 2013-cü ildə cənab Prezident İlham Əliyevin göstərişinə əsasən əsaslı təmirə bağlanmış, aparılan əsaslı təmirdən, yenidənqurmadan və abadlaşdırılmadan sonra 2015-ci ilin mart ayında cənab Prezidentimiz İlham Əliyevin iştirakı ilə istifadəyə verildi.

Xəstəxana istifadəyə verilərkən ən müasir tibb avadanlıqları və inventarlarla tam təmin edilmişdir. Ona görə də hazırda şəhər mərkəzi xəstəxanasının şöbələri və Doğum evi, "Ana və Uşaq" MSM-i və Onkoloji dispanser öz fəaliyyətlərini şöbə kimi davam etdirirlər. Bundan başqa, Mərkəzi Xəstəxanada 10 çarpayılıq Hemodializ şöbəsi də yaradılmışdır. Hazırda həmin şöbə dializə ehtiyacı olan xəstələrə yüksək keyfiyyətli tibbi xidmət göstərir.

Hesabat dövründə şəhərin ali ixtisas və peşə məktəblərində maddi-texniki bazanın möhkəmləndirilməsi, təlim-tədris prosesinin keyfiyyətli təşkili sahəsində bir sıra işlər görülmüş, əlamətdar günlərə, bayramlara həsr olunmuş müxtəlif səpgili tədbirlər keçirilmiş, kollektivlər ümumşəhər tədbirlərində fəallıq nümayiş etdirmişlər.

2015-ci ilin 9 ayında Mingəçevir şəhərində aparılmış iqtisadi və sosial yönümlü tədbirlərlə yanaşı ictimai və siyasi sahələrdə də işlər davam etdirilmişdir. Belə ki, milli-mənəvi dəyərlərimizin qorunub saxlanması və təbliği istiqamətində görülən tədbirlər genişlənmiş, keçirilən ümumşəhər tədbirlərində əhalinin, siyasi partiyaların, dini qurumların və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin iştirakı təmin edilmişdir.

Görülmüş işlərin miqyası nə qədər əhatəli olsa da ilin sonuna qədər qarşıda duran və öz həllini gözləyən vəzifələrin də uğurla icra olunması üçün şəhər icra hakimiyyətinin rəhbərliyi bütün qüvvələri səfərbər etmişdir.

**İlham PƏNAHOV,**
**"Respublika".**